

Oqtay Rza
Əməkdar
müəllim

## QƏLƏM

Tale töhfəsidir o, insanlara,
Qələmi çatdırıb yerə mələklər.
Daş dövrü arxada qalandan sonra
Qələm - göy, qırmızı, yaşıl... rəngbərəng,

Qanıdır, canıdır onun mürəkkəb.
Bilik, mədəniyyət ehramları tək
Sevilir hər orta, hər ali məktəb
Qələm meydanının cəngavərləri!

Qələm - möcüzəli çubuq kimidir:
Açır qapıları, açır sirləri,
Çoxdur qayğıları bu qədim yurdun,
Qələmdən nur içib işıqlı gözlər;

Heyf qürbətdədir Dədəm Qorqudun
Dəri üzərində yazdığı sözlər.
Bütün haraylara gərək hay verim,
Yayın söhbətimi, çəkin adımı.

Qələmsiz-kağızsız, ay müasirim,
Robot, sayt, kompüter yaranardımı?!
Qələmdən süzülən mirvari, inci
Düzülüb sıraya - dönür əsərə.

Münəccim yaşıdım yaxşı deyir ki,
Qələm yol gedəcək mininci əsrə;
Daha qüdrətlidir topdan, mərmidən,
Dərinlik, ucalıq bəxş edir qələm;
Nəğməm qanadlansın kosmik gəmidən:
Bəşərin ən böyük kəşfidir qələm!